

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 55 (24.192)

*30 mart 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Ümummilli Liderin 100 illiyi münasibətilə Ordubad rayonunda “Azərbaycan-Türkiyə ipək bağı” salınıb





Martın 29-da Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin əməkdaşlığı çərçivəsində Ordubad rayonunun “Əylis düzü” adlanan ərazisində Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə “Azərbaycan-Türkiyə ipək bağı” salınıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya, Naxçıvan Dövlət Universitetində təhsil alan türkiyəli tələbələr, eyni zamanda rayonda vaxtilə baramaçılıqla məşğul olan sakinlər “Əylis düzü”ndə 1,2 hektar ərazidə yeni salınan bağda Türkiyədən gətirilmiş 600-dən artıq tut tingi əkiblər.

Səlahiyyətli nümayəndə rayonda vaxtilə baramaçılıqla məşğul olan sakinlərlə söhbət edib, xatirə şəkli çəkdirilib.

Tut tinglərinin əkilməsində məqsəd gələcəkdə muxtar respublikada baramaçılığın inkişaf etdirilməsinə töhfə verməkdir.

**“Şərq qapısı”**



## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən tədbirdə İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edib. Qeyd olunub ki, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması böyük dövlət xadiminin Azərbaycan xalqı qarşısındakı fəaliyyətinin dünyaya və xalqımıza çatdırılmasına xidmət edir. Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin, Azərbaycançılıq məfkurəsinin formalaşmasına əvəzsiz töhfələr verib, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin edib. Bu baxımdan bugünkü tədbirin mövzusu tarixi qanunauyğunluqdur.

Bildirilib ki, bu gün Azərbaycançılıq məfkurəsi həm ölkəmizdə, həm də bütün dünyada yaşayan həmvətənlərimiz üçün əsas ideologiyaya çevrilib. Təsadüfi deyil ki, ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyasının fəaliyyət proqramının əsas prinsiplərindən birini məhz Azərbaycançılıq təşkil edir. Ulu Öndər Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və mənəvi birliyinə nail olub. Bu ideologiyanın əsasında dövlətçiliyin, milli mənafenin müdafiə edilməsi, milliyyətindən, dini baxışlarından asılı olmayaraq hər bir vətəndaşın hüquqlarının qorunması mühüm yer tutur.

Vurğulanıb ki, ölkəmizdə əsası Ümummilli Lider tərəfindən qoyulmuş bu müdrik siyasət dövlət başçımız cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Haqq mübarizəmizdə əldə olunmuş böyük Zəfər də məhz Heydər Əliyev ideyalarının təntənəsidir. Yaddaşlarda xilaskar lider, tarix yaradan şəxsiyyət kimi həkk olunan böyük dövlət xadiminin yolu şanlı irsimizdir və daim öyrənəcəyimiz məktəbdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri Ramiz Qasımov çıxışlarında diqqətə çatdırıblar ki, Azərbaycançılıq ideologiyası XIX əsrin sonu, XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşsa da, Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil dövlətimizin əsas ideyasına çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. Bu gün çoxmillətli Azərbaycan xalqını birləşdirən Azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına uğurla xidmət edir. Ölkə başçısı bu ideologiyanı zənginləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Sonda mövzu ilə bağlı filmə baxış olub.

* * *

Naxçıvan Müəllimlər İnstitutunda “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda elmin inkişafı” mövzusunda tələbələrlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov bildirib ki, “Azərbaycan Respublikasında 2023-cü ilin Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar Naxçıvan Müəllimlər İnstitutunda görüləcək işlərə dair Tədbirlər Planının icrasına uyğun olaraq institutda bir sıra tədbirlər həyata keçirilir. Onlardan biri də tələbələrlə elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Liderin 100 illiyinə həsr olunmuş görüşlərin keçirilməsidir. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA Naxçıvan Bölməsinin sədri, Azərbaycan Respublikasının Əməkdar elm xadimi İsmayıl Hacıyevin tələbələrlə görüşü təşkil edilib.



Görüşdə “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda elmin inkişafı” mövzusunda məruzə edən akademik İsmayıl Hacıyev vurğulayıb ki, müstəqil Azərbaycan dövlətinin bugünkü inkişafı Ulu Öndərin adı, onun yorulmaz fəaliyyəti ilə bağlıdır. XX əsrdə böyük bir yol keçmiş Azərbaycan elmi və təhsili görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəyə hər iki rəhbərliyi dövründə özünün ən yüksək səviyyəsinə çatmışdır. Ümummilli Liderin məqsədyönlü siyasəti hər zaman elmi əsaslara söykənmişdir. Bu siyasətin layiqli davamçısı Prezident cənab İlham Əliyev elm, təhsil və mədəniyyətin, alim və müəllimlərin böyük himayədarı olmuş Ulu Öndərin Azərbaycanda elmin inkişafının dəstəklənməsi ilə bağlı siyasətini uğurla davam etdirir.

Tədbirdə, həmçinin Azərbaycan xalqının mədəniyyətinə və elminə xüsusi önəm verən dahi şəxsiyyət Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin banisi və qurucusu kimi fəaliyyətindən də bəhs edilib.

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli”nə həsr olunmuş “Ulu Öndər Heydər Əliyevin dövlətçilik təlimində milli-mənəvi dəyərlərin yeri” mövzusunda tədbir keçirilib.*



Tədbirdə Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyevin, tarix üzrə elmlər doktoru Sevinc Abbasovanın “Ümummilli Lider Heydər Əliyev və Azərbaycan qadını (1970-1982; 1993-2003-cü illər)”, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərovun “Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə milli-mənəvi dəyərlərə diqqət və qayğı dövlət siyasətinin tərkib hissəsi kimi”, AMEA Naxçıvan Bölməsinin dosenti Aytən Cəfərovanın “Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz” mövzularında çıxışları dinlənilib.

Çıxışlarda qeyd olunub ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışırdı.

Diqqətə çatdırılıb ki, milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun rəmzi olaraq tarixi yaddaşın fundamental prinsipləri əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yaradılıb.

**Xəbərlər şöbəsi**

*Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu görkəmli siyasi xadim Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi şəxsiyyətlərdəndir. Müasir Azərbaycan dövlətinin ötən illər ərzində ictimai-siyasi, sosial-iqtisadi, eləcə də mədəni həyatının bütün sahə və istiqamətləri üzrə dirçəlişi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu illərdə Ümummilli Liderimiz xalqımızı tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın etibarlı bünövrəsini yaratmışdır.*

*Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.*



*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ümummilli Liderimizin ideyaları, amalları Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır

Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha malik olan görkəmli dövlət xadimi Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə həmişə öz xalqının yanında olmuşdur. Azərbaycanın həqiqi müstəqilliyi, intibahı məhz dahi rəhbərin çoxşaxəli fəaliyyəti ilə bağlıdır. Bu, sözün əsl mənasında, ***"Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram"***, – deyib şərəfli bir missiyanı üzərinə götürən Ulu Öndərin öz xalqı, Vətəni qarşısında misilsiz fədakarlığı idi. Ümummilli Liderimiz həmişə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənir, arxalanırdı. Tarix sübut etdi ki, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin güvəndiyi, arxalandığı bu yenilməz qüvvə qarşıya çıxan neçə-neçə qorxunc təhlükəni sovuşdurmağa, keçilməz maneələri belə dəf etməyə, həqiqətən də, qadirdir. Məhz xalqın öz dahi lideri ilə birliyi, həmrəyliyi sayəsində müstəqilliyimiz əbədi prosesə çevrildi və ölkəmiz davamlı inkişaf yoluna çıxdı.

Azərbaycanın müasir tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti Heydər Əliyevin mənalı həyat yolu və fəaliyyəti tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbidir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Ulu Öndər Heydər Əliyev şəxsiyyətindən qaynaqlanır. Ümummilli Liderimiz Azərbaycan xalqının və dövlətinin milli maraqlarını hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran lider, dahi rəhbər idi.

***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"***, – deyən Ulu Öndərimiz şərəfli ömür yolunun 35 ilini Azərbaycanın nicatına həsr etmiş, xalqı azadlığa qovuşdurmaqla onun qəlbində özünə möhtəşəm abidə ucaltmış, müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, əbədi müstəqillik tarixini yaratmışdır. Ona görə də çox düzgün olaraq 1969-cu ilin 14 iyulunda görkəmli dövlət xadiminin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamında deyilir: *"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir"*.

Ulu Yaradan dahi şəxsiyyət Heydər Əliyevə bütün fiziki və mənəvi keyfiyyətləri səxavətlə vermişdi. Digər tərəfdən, Ulu Öndərin öz bilik və bacarığını, zəngin təcrübəsini tətbiq etmək üçün geniş meydan vardı. Əlbəttə, bu meydana girmək, özünü sübut etmək, layiq olduğun mərtəbəyə yüksəlmək üçün gərgin zəhmətə qatlaşmaq, gecə-gündüz yorulmaq bilmədən çalışıb-çarpışmaq tələb olunurdu. Dahi rəhbər bütün bu vəzifələrin öhdəsindən daim ləyaqətlə gəldi. Azərbaycanın qərinədən artıq bir dövrünü əhatə edən tarixi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş bilavasitə görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol öz başlanğıcını, əslində, 1969-cu ildən – məhz bu dahi şəxsiyyətin hakimiyyətə gəlişindən götürmüşdü. Ulu Öndərin hakimiyyətə gəlişindən sonra Azərbaycanda xalq təsərrüfatının bütün sahələri inkişaf yoluna qədəm qoydu. Sənayedə, kənd təsərrüfatında, mədəniyyət, səhiyyə, incəsənət və digər sahələrdə də intibah dövrü başlandı. Bu, əlbəttə, görkəmli dövlət xadiminin şəxsiyyəti, fəaliyyəti, işgüzarlığı, dərin məntiqi, yüksək qabiliyyəti, intellektual səviyyəsi ilə bağlı idi. Azərbaycan məhz Ümummilli Liderin rəhbərlik etdiyi 1969-1982-ci illərdə sovet respublikaları içərisində öncül yerə keçdi. Elə həmin illərdə Azərbaycanda böyükhəcmli abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan neçə-neçə binalar tikilib istifadəyə verilmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin mədəniyyətimizə, tariximizə, səhiyyə sahələrinə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Azərbaycanın ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün ev-muzeyləri yaradılmışdır.

Ümummilli Liderin Azərbaycanın əsl dövlət müstəqilliyi qazandığı dövrdə siyasət meydanında olması, buna qədər isə təkcə xalqın məhəbbətini deyil, həm də etimad və etibarını qazanması taleyin qisməti idi. ***"Mən həyatımın yerdə qalan hissəsini də doğma xalqıma bağışlayıram"***, – deyən Ulu Öndər bütün ömrünü xalqının xoşbəxtlik və səadətinə həsr etmişdir. Adıçəkilən Sərəncamda deyilir: *"Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömürboyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir"*.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan dahi rəhbərimiz özünün zəkası ilə bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Xalqımızın böyük oğlu Heydər Əliyev tarixin ən çətin, məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıdan, onu sevərək hifz edən, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirən qüdrətli bir şəxsiyyətdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən Ulu Öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan qurtarmışdır.

1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası olduqca gərgin bir dövr yaşayırdı. Naxçıvan Ulu Öndərin də dediyi kimi, ***"taleyin ümidinə buraxılmış tənha ada"***nı xatırladırdı. Azərbaycanın əsas əraziləri ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən sonra iqtisadi və siyasi böhran içində boğulan, adamların son ümidi olan ov tüfəngləri də yığılandan sonra erməni təcavüzü qarşısında əliyalın və köməksiz vəziyyətdə qoyulan Naxçıvan düşdüyü vəziyyətə SSRİ-nin tərkibindən çıxması barədə qərarı ilə etirazını bildirəndən sonra ovaxtkı hakimiyyətin qəzəbinə düçar olmuşdu.

Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qətiyyətli addımların atılmasına gətirib çıxartdı.

Böyük və mənalı ömrün Naxçıvanda keçən 3 ili ərzində görülən işlər müstəqil dövlətimizin qurulmasına yönəldilmiş strategiyanın tərkib hissəsi idi. Ulu Öndərin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə nəticələnmiş, həm də muxtar respublikamızı işğal təhlükəsindən qorumuşdur. 1990-cı ilin noyabr ayında görkəmli dövlət xadiminin Sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ Sovetlər Birliyinin mövcud olduğu bir dövrdə üçrəngli Azərbaycan bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır.

Tale Ulu Öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən Ümummilli Lider özünə Naxçıvan boyda abidə ucaltdı. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev Naxçıvana üz tutdu və bu da hesab edirəm ki, tarixi zərurət idi. Çünki o vaxt Naxçıvan da təhlükə altında idi. Erməni qəsbkarları Naxçıvana da öz çirkin əllərini uzatmışdılar. Tam əminliklə deyə bilərəm ki, əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, bəlkə, Naxçıvan da işğal oluna bilərdi. O, Naxçıvanı qorudu, naxçıvanlılar da onu qorudular"***.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin etmişdir. Ümummilli Liderimizin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir.

*Xalqımız əmindir ki, Ümummilli Liderimizin siyasi kursu möhkəm əllərdədir. Ölkə rəhbəri nəinki regionda, bütövlükdə, dünyada qəbul edilmiş siyasətçi kimi Azərbaycanı, onunla birlikdə Heydər Əliyev kursunu da yaşadır, ölkəmizi inamla daha xoşbəxt gələcəyə aparır, böyük uğurlara imza atır. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan daha da inkişaf edərək lider dövlətə çevrilmişdir. Bu inkişaf ölkə həyatının bütün sahələrini və regionları əhatə edir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da sürətli inkişaf yolundadır. Bütün bunlar görkəmli dövlət xadiminin yoluna, siyasi və nəzəri irsinə sədaqətin nəticəsidir. Ölkə rəhbəri cənab İlham Əliyevin də dediyi kimi:* ***"Heydər Əliyev yaşayır. Azərbaycan xalqının qəlbində yaşayır. Nə qədər Azərbaycan var, Heydər Əliyev olacaqdır. Biz – Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq"***.

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru***

## Gənclər şəhid ailələrini ziyarət ediblər



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Kəngərli rayonunda yaşayan şəhid ailələri ziyarət olunub. Tədbir iştirakçıları bu məqsədlə şəhidlərimiz – Basit Rüstəmov, Elmar Möhsümov, Ülvi Cəfərov, Niyaməddin İsgəndərov, Təbriz Əsgərov, Kəmaləddin Məmmədov və Aslan Mirzəyevin ailə üzvləri ilə görüşərək qəhrəmanlarımızın həyatı, döyüş yolu və şücaəti barədə məlumatlandırılıblar.

Gənclər və idman nazirinin müavini, Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə dərin minnətdarlıqlarını bildiriblər.

İştirakçılara qəhrəman şəhidlərimizin xidməti fəaliyyəti, təltif edildikləri orden və medallar barədə məlumat verilib. Ailə üzvləri onların özünəməxsus xüsusiyyətləri ilə bağlı fikirlər səsləndirib, xatirələrini bölüşüblər. Gənclər şəhidlərimizə aid xatirə guşələri ilə də tanış olublar.

Qeyd edək ki, belə görüşlər bundan sonra da davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Qadınlar tərəfindən ailə təsərrüfatlarının qurulması və ya genişləndirilməsinə maddi dəstək göstərilir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müvafiq sahənin inkişafı ilə bağlı sosial layihələr icra olunur, qadınlara fəaliyyət istiqamətlərinin inkişafı və genişləndirilməsi üçün sərmayə kapitalı verilir.

Cari ildə Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra olunan "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsində sərmayə kapitalı alan 4 qadının təsərrüfat sahəsi və evində sərmayə kapitalından düzgün istifadə olunması və ya müvafiq sahələrin qurulması ilə əlaqədar monitorinqlər keçirilmişdir. Monitorinqlər zamanı məlum olmuşdur ki, layihə iştirakçıları – Naxçıvan şəhər sakinləri İlhamə Aslanova, Ruhiyyə Bağırova dekorativ-tətbiqi sənət, Şahbuz şəhər sakinləri Qumru Vəlizadə toxuculuq, Simuzər Rüstəmova isə iribuynuzlu heyvandarlıq sahəsi üzrə sərmayə kapitalından öz təyinatlarına uyğun istifadə edərək fəaliyyət sahələrini qurmuşlar. Monitorinq zamanı heç bir nöqsan aşkarlanmamışdır.

Sərmayə kapitalı alan qadınlar məşğulluqlarının təmin olunması istiqamətində dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Alternativsiz düşmən “alternativ yol” axtarışında...

*Livan yazıçısı, filosof Mixail Nüeymə deyirdi ki, o xalqlar tarixdə daha düzgün mövqe tuta bilir ki, onlar başqalarının tarixindən də dərs almağı bacarırlar. Yaxın keçmişdə yaşanan hadisələr bir daha göstərdi ki, başqalarının qoltuğuna qısılmağı sevimli adət-ənənəsinə çevirən, özgə kölgəsində daldalanmağa alışmış erməni toplumu hələ öz naməlum, qaranlıq tarixlərindən dərs çıxarmağı bacarmırlar, o ki qala digərlərinin tarixindən... Reallıq odur ki, dünyada hiyləgərlikdə, barbarlıqda ad çıxaran, bu “məharətinə” görə alternativi olmayan, rəqib tanımayan nankor düşmən 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusundan aldığı sarsıdıcı zərbələrdən sonra suya düşmüş xülyalarının axtarışından əl çəkmək niyyətində deyillər. Ancaq bir faktı unudurlar ki, qalib ölkə Prezidentinin cəhənnəmə, gora yolladığı o xülyaları nəinki Ermənistanın, onun hər gün bədnam arzularla müsəllaya çıxan sadiq dostlarının belə qaytarmağa iqtidarı, gücü çatmaz...*

Əli minlərlə günahsız insanın qanına batmış, öz vətəndaşının aqibətini düşünməyən düşmən ölkənin gəlib-keçmiş bütün siyasi rəhbərliyindən fərqli olaraq Azərbaycan dövləti hər zaman müharibəyə, zülmə deyil, sülhə, barışığa can atır. Münxen Təhlükəsizlik Konfransı zamanı ölkə Prezidentinin həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələrinin yaradılması ilə bağlı səsləndirdiyi təklif, eləcə də Almaniya prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşdə dediyi ***“Hesab edirəm ki, razılaşma əldə etmək üçün yaxşı şans var, xüsusən də ötən ilin oktyabrında Soçidəki görüşlərdən sonra Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı bir zamanda. Bu sazişi gec-tez imzalamaq yaxşı fikirdir. Biz beynəlxalq hüquqa əsaslanan və bizim mövqeyimizə görə sülh sazişinin əsasını təşkil etməli olan beş prinsip işləyib hazırlamışıq”*** sözləri bu amili bir daha təsdiqləyir. Ancaq, təəssüflər olsun ki, dörd aya yaxındır, ekoloji terrora qarşı çıxaraq əzm göstərən Azərbaycanın könüllü gənclərin, ekoloqların faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması, “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsi ilə bağlı haqlı tələblərinə məhəl qoymamaqla, keçirilən beynəlxalq görüşlərdə Azərbaycanın humanizm prinsiplərinə əsaslanan sülh çağırışlarını geri çevirməklə nataraz qonşumuz geri dönüşü olmayan bir yolu tutmaqda davam edir...




Gerçək odur ki, sülh prosesini yubatmağı azmış kimi, müxtəlif təxribatçı hərəkətlərindən də əl çəkməyərək qan tökməyə xidmət edən Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını intensivləşdirməklə düşmən ölkənin xunta rejimi Ali Baş Komandanımızın, əsgər və zabitlərimizin səbir kasasını doldurmaqda israrlıdırlar. Bu xüsusda 2020-ci ilin 10 noyabr tarixində imzalanan, Ermənistanın kapitulyasiya aktı sayılan Üçtərəfli Bəyanatın müddəalarını vurğulamaq yada salmaq yerinə düşər. Həmin bəyanatda qeyd olunur ki, Ermənistanla Azərbaycanın Qarabağ bölgəsi arasında yeganə əlaqə yolu Laçın yoludur və o, mülki yüklərin, həmçinin mülki şəxslərin daşınmasına xidmət etməlidir. Lakin baş verən hadisələr göstərir ki, Ermənistan üçün BMT-nin qətnamələri, beynəlxalq humanitar hüququn, o cümlədən YUNESKO-nun 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolu, eləcə də 1970-ci il Konvensiyası kimi üçtərəfli bəyanatda yazılanlar da əhəmiyyətsiz, formal xarakter daşıyır. Digər təəssüf doğuran hal isə Rusiya tərəfinin, xüsusilə də “sülhün təminatçısı” funksiyasını icra etməyə çalışan sülhməramlıların da 10 noyabr bəyanatının müddəalarına əməl etməkdə istəkli olmamasıdır. Görünən odur ki, qanunsuz erməni silahlı qüvvələrinin Qarabağdan tamamilə çıxarılmasının, Laçın rayonundan keçən yolun humanitar məqsədlər üçün nəzərdə tutulduğu bəndlərin də yer aldığı 10 noyabr bəyanatında üzərinə götürdüyü öhdəlikləri Azərbaycandan başqa heç bir tərəf yerinə yetirmək istəmir. Əvəzində isə alternativsiz düşmən titulunu layiqli şəkildə daşıyan Ermənistan təxribatlar törətmək, sülh gündəliyinə xələl gətirmək məqsədilə alternativ yollar axtarır. Məhz 2023-cü il martın 5-də qondarma erməni silahlılarının Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə etməklə qanunsuz daşımalara cəhdi zamanı baş verən silahlı qarşıdurmada 2 hərbi qulluqçumuzun şəhid olması və martın 20-də Avropa İttifaqı missiyasının yerləşdiyi Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində Ermənistanın növbəti təxribatı zamanı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması faktı da qarşı tərəfin vəziyyəti gərginləşdirməyə, sülhdən yayınmağa məqsədli olduğunu bir daha göstərdi. Müharibə riskini artıran bu addımlara qarşı əvvəlcədən əməliyyat, kəşfiyyat məlumatlarına malik olan Azərbaycan Ordusunun adekvat cavabı düşmənə sarsıdıcı zərbə vurmaqla onun çirkin planlarını növbəti dəfə fiaskoya uğratdı.

Bəli, gün ötdükcə Ermənistanın vəziyyəti mürəkkəbləşdirməyə hesablanmış, silahlı qarşıdurma məqsədi daşıyan təxribatçı davranışlarının intensivləşməsi artıq Azərbaycanın növbəti antiterror əməliyyatlarını reallaşdırmasını labüd edir. Nə qədər gec deyil, yaxşı olar ki, qonşu respublikanın siyasi rəhbərliyi 2020-ci ilin 44 günlük Vətən müharibəsində yaşananları da xatırlayaraq “papağını” qabağına qoyub dərindən düşünsün, qalib ölkə Liderinin: ***“...Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax o dağın başında mənim sözlərim yazılıb: “Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın...”*** sözlərini qulağında sırğa edərək, “alternativ yol” sevdasından əl çəkib doğru yola gəlsin, humanist təkliflərlə razılaşsın. Yox, əgər sülh sazişi reallığını qəbul etməyib müharibə aparmaq xülyasına düşəcəksə, özü çəkdiyi yolun sonundakı dərin uçuruma yuvarlanmaq üçün geri sayıma elə indidən başlaya bilər...

**Nail ƏSGƏROV**

# Tarix unudulanda keçmiş təkrarlanır

## *Budur həqiqət, budur milli faciələrimizin təkrarının əsas səbəbi*



*Keçmiş unudulanda, milli faciələrə biganəlik yarananda qan yaddaşı silinərək pozulmaq təhlükəsi ilə üz-üzə qalır. Nəticədə, xalq yeni məhrumiyyətlərə, işgəncələrə düçar olur. Növbəti təqiblər girdabına düşür, faciələr burulğanına yuvarlanır. Həm də daha dəhşətli, amansız, dözülməz formada, yurd, vətənsizlik ağrı-acısıyla.*

Biz bunu həm gördük, həm də yaşamağa məhkum olduq. Bir əsrdə dəfələrlə qanlı faciələrlə rastlaşdıq. İşgəncələrə, təqiblərə, soyqırımlara məruz qaldıq, yurd-yuvamızdan zorla qovulduq. Amansız deportasiya, repressiya, qətliamlarla üzləşdik. Bütün bunlar isə insanlıq duyğularımızdan, humanistliyimizdən, qan tökmək istəmədiyimizdən oldu.

...Tarix unudulanda keçmiş təkrarlanır!

Hərdən milli faciələrimizin səbəbini düşünürəm, başlanıldığı zamanı dəqiqləşdirməyə çalışıram. Bizi soyqırımlara gətirən yolun başlanğıcı XIX əsrin əvvəllərinə gedir. Yorğun düşüncələrimdən bir haray qopur: Gülüstan, Türkmənçay müqavilələri ilə yarımcan edilən Azərbaycan! Qulaqlarıma Kərkidən Göyçəyə, Ərzurumdan Dərbəndə ulularımızın səsi gəlir. İndi düşmən tapdağında olan torpaqlarımızın naləsi eşidilir. Bir zamanlar yurdsuz-yuvasız, dünyanı sərgərdan dolaşan ermənilərə sığınacaq verməyimizdən və onların nankorluğundan qeyzə gəlirəm. Xalqımızı doğma yurd-yuvasından qovan, soyqırımına düçar edən və dünyaya özlərini “zavallı”, “günahsız” millət kimi göstərməyə çalışan, iblis simalı ermənilərin bəşəriyyəti aldadan “genosid” harayından damarlarımda qanım donur. Qəlbimdə soyqırımına düçar olan soydaşlarımızın – şəhidlərimizin sümüklərinin göynərtisini duyuram.

...1905-1907-ci, 1914-1920-ci illərdə azərbaycanlılara qarşı tarixdə misligörülməmiş soyqırımlar törədildi. 1912-ci ildə Daşnaksütyun partiyasının orqanı olan “Orizon” da nəşr edilən məqalədə deyilir: “Türk dövlətinin səlahiyyətliləri və iqtidar sahibləri bilsinlər ki, nə bir türk, nə də bir türk dövləti bundan sonra erməni üçün heç bir dəyər daşımır. Varlıqlarını qorumaq üçün başqa yollar düşünsünlər”.

1918-ci ilin 31 mart qırğını isə soyqırımı siyasətinin daha amansız forması idi. Həmin gün təkcə Bakı şəhərində 17 min soydaşımız şəhid olub, həm də böyük işgəncələrlə. Bu müsibət həm miqyasına, həm də işgəncə üsullarına görə analoqu olmayan faciə kimi tarixə düşüb. Məqsəd azərbaycanlıları millət olaraq məhv edib, “böyük ermənistan” xülyasını həyata keçirmək idi. Ermənilərin vəhşiliklə yürütdükləri bu soyqırımı nəticəsində təkcə Zəngəzur mahalında azərbaycanlıların yaşadığı 115 kənd yer üzündən silindi, yarım milyon insan amansızlıqla qətlə yetirildi.

Həmin illərdə T.Haçikoğlyanın Sovet Ermənistanı Qızıl Ordu atıcı diviziyasının 10-cu ildönümü münasibətilə Qızıl Ordu tərəfindən nəşr edilən kitabçasında yazılır: “Daşnak cümhuriyyətinin qısa dövründə Azərbaycan, Gürcüstan, Türkiyə ilə aparılan döyüşlərdə daşnakların qanlı əlləri ilə minlərlə türkü məhv etdikləri, kəndləri yandırıb külə çevirdikləri, Zəngəzur, Şərur, Dərələyəz, Mehri, Ağbaba, Zəngibasar, Böyük Vedidəki türk kəndlərində yaşanan vəhşiliklər, qətliamlar, soyğunçuluqlar hələ də yaddaşlardan silinməyib”.

Mart soyqırımı sovetləşmə ilə pərdələndi. Gələcək nəsildən gizlədildi, bolşevik-kommunist siyasəti ilə unutduruldu. Bakıda möhtəşəm Çəmbərəkənd yüksəkliyində soyqırımı qurbanlarının basdırıldığı məzarlıq məqsədyönlü şəkildə əyləncə yerinə döndərildi. Cəllad S.M.Kirovun heykəli ucaldılıb parka çevrildi. Nəticədə, ötən əsrin repressiyası doğuldu. Kütləvi güllələnmələr, sürgünlər başladı. Millətimiz məsləhətçisi “Troyka”, müəllifi Mikoyan, Sumbatov, Qriqoryan, Markaryan və başqa yanlar olan yeni faciələrlə üzləşdi. Mənəviyyata və milli yaddaşa yönələn bu soyqırımında fiziki qətllərə mənəvi dəyərlərin məhv olunması da əlavə edildi. Xalqın görən gözü, düşünən beyinləri aradan götürüldü. Mentalitet, din, yaddaş soyqırımına məruz qaldı. Soydaşlarımız kütləvi deportasiya burulğanına düşdü. Qərbi Azərbaycan köçürüldü, qədim Oğuz yurdunda coğrafi toponimlərin erməniləşməsi heç bir maneə olmadan aparıldı.

Beləcə, zaman-zaman odlara düşdük. Səbəbini aramadan, axtarmadan namərd qonşularımızın “ərköyünlüyünü” ən qanlı faciə ilə bitmiş sandıq, ağıllandıqlarını zənn etdik. Daha da şirnikləndiklərinin, quduzlaşdıqlarının şahidi olduq. Yanıldığımızı tarix yenidən təkrar olunanda başa düşdük. 1988-93-cü illərin də müdhiş günlərini gördük. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, Vedidə – indi Ermənistan adlanan əzəli Azərbaycan torpaqlarında yaşayan həmvətənlərimiz dədə-baba yurdlarından qovuldular. Tarixi keçmişimizi yaşatmağa yenidən məhkum olduq. Qərbi Azərbaycan torpağını bütövlükdə itirdik.

Bu amansız siyasətin qarşısını alan, Azərbaycanı yox olmaq təhlükəsindən qurtaran, ömrünü xalqına, Vətəninə həsr edən Ulu Öndər Heydər Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində bu acı fəlakətlərdən qurtardıq. Elə tarixi keçmişimizə, milli faciələrimizə də Ümummilli Lider tərəfindən əsl hüquqi-siyasi qiymət verildi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Görkəmli dövlət xadimi Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə tədqiqatların aparılmasına, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi.

Bu gün Azərbaycan xalqı tarixin heç bir dövründə olmadığı kimi güclü və qürurludur. Çünki bu Vətənin oğulları illərdir, xalqımızın başına gətirilən müsibətlərin cavabını müharibə meydanında verdi. Biz qalib xalq olaraq vaxtilə soyqırımına məruz qalan soydaşlarımızın ruhu qarşısında öz borcumuzu yerinə yetirə bildik.

**Ramiyyə ƏKBƏROVA**

# Hay hotelinin xidmətçisi Rasmussen *(replika)*

Qarabağdakı işğalçılıq planları alt-üst olmuş bədnam erməni ordusu Xankəndi yolundakı palçıq yolda ilişib qalandan sonra revanşist ölkə bu dəfə də çarəni Avropadakı sərxoş dəstəkçilərində axtarmağa başlayıb. Nə İrandakı molla rejiminin, nə Fransanın boş çırpıntılarına, nə də rus sülhməramlılarının hərəkətlərinə məhəl qoyan Azərbaycan ekofəallarının Laçın yolundakı qərarlı duruşundan tükənmiş erməni separatizmi və onun silahlı tör-töküntüləri artıq bütün kirli yolların bağlanması ilə son vasitəyə, rüşvət verməklə Avropa siyasətçilərini kamera qarşısına çıxarmağa əl atıblar. Dünyanın ən böyük hərbi paktı NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen də artıq əli aşağı düşən kimi erməni lobbisinə əl açıb pullu xidmət göstərən belə siyasətçilərdəndir.



Bu gün Ukraynadakı insanlıq dramının Rusiya ilə simmetrik səbəbkarlarından biri olan NATO dünyanın gəldiyi humanitar fəlakət astanasında özünün də daşıdığı məsuliyyətin üzərində düşünməkdənsə, tam əksinə, Rasmussen kimi keçmiş liderlərinin dırnaqarası siyasi məsləhət xidmətləri ilə durulmaqda olan suları yenidən bulandırmaqla məşğuldur. Qarabağın erməni işğalından azad edilməsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz üçün olduqca həyati əhəmiyyət daşıyacaq sülh prosesinin bərqərar olunması üçün səylər artırıldığı zamanda bu “danimarkalı Rasimin” birdən-birə ortaya çıxıb erməni konyakına tərif deməsi hər kəsdə şübhələri bir daha artırır.

Rasmussenin erməni çəlləyindən qidalanaraq Azərbaycanın əleyhinə fikirlər səsləndirməsinin əsas motivi təkcə qurucusu olduğu dırnaqarası qlobal siyasi məsləhət firması – “Rasmussen Global”dan gələn gəlirlərinin onun xərclərindən 10 dəfə az olması ilə bitmir. Erməni siyasi dairələrinin Rusiyasının təsir dairəsindən sürətlə uzaqlaşaraq Avropaya üz tutduğu bir dövrdə Rasmussenin Ermənistanda peyda olması, hətta Laçın yolu üzərində fotoşəkil çəkdirməsi onun, guya, sağlam sülhsevər məqsədə yönəlmiş missiyasından daha çox suveren bir ölkənin daxili işlərinə burun soxmasından başqa heç nə deyildir.

Bu fikirləri öz məqaləsində təhlil etmiş, obyektiv mövqeyi ilə “Şərq qapısı” qəzetinin oxucularına da yaxşı tanış olan amerikalı jurnalist Peter Teysin fikrincə, əslində, Rasmussenin İrəvana səfəri və burada baş nazir və digər erməni rəsmiləri ilə keçirdiyi görüşlər Qarabağdakı son nəfəsini verən erməni separatizminə yeni can qazandırmaq və getdikcə gərginləşən Rusiya-Ermənistan münasibətlərində yaranan siyasi boşluğu doldurmaq məqsədi daşıyır. Çünki erməni lobbisinin maddi dəstəyi ilə onun burada keçirdiyi görüşlərin siyasi pafosu bu gün Avropanın bir nömrəli gündəm maddəsi olan Rusiya-Ukrayna müharibəsi fonunda bir atımlıq barıt kimi cılız görünür. Elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi Qarabağ problemi artıq öz həllini tapıb və yerdə qalan reinteqrasiya məsələləri zaman içərisində gec-tez həll olunacaqdır. Buna görə də hələ Azərbaycan torpaqlarının işğal olunduğu dövrdə NATO-nun baş katibi kimi bir dəfə də olsun analoji çıxış etməyən Rasmussenin Laçın yolu üzərində təqaüdçü turistlər kimi verdiyi poz olsa-olsa yalnız onun hələ də qocalmadığını sübut etməsi kimi yadda qalacaqdır. Ancaq fikrimizcə, bu 70 yaşlı siyasətçinin belə bir fikri vardısa, İrəvanda boşuna zaman keçirmək yerinə 30 illik erməni blokadasından hələ də əziyyət çəkən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına səfər edərək “Prestij-Naxçıvan” pivəsinin dadına baxıb, üstəlik, Əlincəqalaya da dırmansaydı, daha yaxşı olardı. Hələlik isə, deyəsən, cənab Rasmussenin belə VİP turistik səfərlər üçün pulu olmadığından bu dəfə hay hotellərinin xidmətçisi səviyyəsində servislərlə kifayətlənməli olacaq. Lakin Xankəndidə deyil, İrəvanda!

**Əli CABBAROV**

*Gəlin açıq danışaq*

# İctimai iaşə obyektlərində xidmət səviyyəsi könlümüzcədirmi?..

*Uzun müddətli bayram tətilini, xüsusilə də xalqımızın əziz milli bayramı olan Novruz bayramını mənalı və əyləncəli istirahətlə, zövqoxşayan keçirmək üçün bir çoxları ailəlikcə ictimai iaşə obyektlərinə üz tutur, mədəni istirahət haqqından yetərincə faydalanmaq istəyir. Bayram günlərində, ötən bazar ailəmlə birlikdə Ağbulaq İstirahət Mərkəzinə yola düşdük. Turizm üçün əlverişli olan bu məkan nəinki naxçıvanlıların, xarici turistlərin də ən çox üz tutduğu istirahət mərkəzlərindən biridir. Şəhər və rayonlardan buraya insanların axışdığını gördükdə bunun bir daha şahidi olduq. Baxmayaraq ki, artıq yaz fəslindəyik, Ağbulaq hələ də qış ab-havasındadır. Soyuq bizi xeyli üşütdüyündən qərar verdik ki, həmin məkanda fəaliyyət göstərən kafelərin birində isinmək üçün çay içək. Bu istirahət mərkəzində bir neçə restoran fəaliyyət göstərir. Bizim də onların içindən seçimimiz "Orange" adlı restoran oldu.*

Yolu buradan keçənlər bu restorandakı xidmət səviyyəsinə, yəqin ki, yaxşı bələddir. Əlbəttə, söhbət təkcə keyfiyyətdən yox, həm də buradakı xidmət səviyyəsindən, sifarişin təqdimatından gedir. Masaların birində yerimizi aldıqdan sonra o tərəf-bu tərəfə qaçan 3 personaldan birindən masaya yaxınlaşmasını xahiş etdik. Gilas mürəbbəsi ilə bir çaynik çay gətirməsini istədikdə, ofisiant restoranda yalnız "set" şəklində sifarişin qəbul olunduğunu söylədi. Sən demə, bu restoranda çay içmək istəyənlər yalnız "çay dəsgahı" sifariş edərək çay içə bilərlər. Çay dəsgahında isə gilas, ərik və çiyələk mürəbbəsi, limon, 3 çeşiddə şokolad və bir çaynik çay təqdim olunur. Uzun müddət gözlədikdən sonra ofisiantın təklif etdiyi "çay dəsgahı" gəldi, amma stəkansız... Bir neçə dəfə ofisiantdan stəkan gətirməsini xahiş etsək də, təəssüf ki, gəlmədi. Soyuq çayın bir az da soyumasını istəməyən bacım özü mətbəxə stəkan gətirməyə getdi. Və nəhayət, "Orange" restoranında soyuq da olsa, çay içmək bizə nəsib oldu.





Maraqlıdır, Naxçıvanda fəaliyyət göstərən restoranların bir çoxunda xidmət səviyyəsi niyə bu qədər aşağıdır? Bəs restorana üz tutan digər müştərilər necə, xidmət səviyyəsindən razıdırlarmı?

Mövzu ilə bağlı fikirlərini ***Qumral Bağırova*** bizimlə bölüşdü. O dedi: – Mənim üçün ən önəmli məsələ gigiyenadır. Restoranda gigiyena qaydalarına ciddi əməl edilməlidir. Yüksək xidmət və möhtəşəm təqdimat hər kəs kimi mənim üçün daha önəmlidir. Bəzən təqdimat və xidmət yeməyin dadını üstələyir. Amma, əlbəttə, yeməklər də mütləq dadlı olmalıdır. Restoran qidalanmaqla yanaşı, həm də mədəni istirahət üçün məkandır. Həmin məkanın atmosferinin fərqli olması da önəmlidir. Akustika insanı dincəltməlidir. Musiqi, rənglər, mebel, işıq, ümumiyyətlə, məkanda harmoniya olmalıdır.

Digər istehlakçı ***Ramil Tahirli*** də bildirdi ki, Naxçıvanda fəaliyyət göstərən ictimai iaşə obyektlərində xidmət səviyyəsi, təəssüf ki, aşağıdır, xüsusilə də operativlik çox zəifdir. Mən türk vətəndaşlarının idarə etdiyi restoranlara daha çox üz tuturam. Çünki onlar müştərilərə təklif etdiyi məhsulları təqdim etməyi yüksək səviyyədə bacarırlar. Ümumiyyətlə, təqdimat çox vacibdir. Burada əsas iş ofisiantın üzərinə düşür. Müştəriyə nə qədər daha tez xidmət göstərilsə, müştəri həmin məkandan bir o qədər məmnun ayrılacaq. Ramil Tahirli onu da söylədi ki, bəzən elə olur ki, menyudakı ilə sifariş qəbzində gələn qiymət üst-üstə düşmür. Belə hallara da diqqətlə yanaşmaq lazımdır.

Mövzu ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Rəqabətin qorunması və istehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdiri ***Elşən Bayramov***a müraciət etdik: – Biz hamımız gündəlik həyatımızda istehlakçıyıq. Tələbatımızı ödəmək üçün müəyyən iaşə obyektlərinə üz tuturuq, təklif olunan məhsulları alırıq, müxtəlif xidmətlərdən faydalanır, bir sözlə, gündəlik olaraq şəxsi tələbatımızı ödəyirik. İstehlakçı olaraq hər birimizin hüquqları var. Həmin hüquqlar "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunla dövlət tərəfindən qorunur.

Elşən Bayramov dedi ki, ictimai iaşə fəaliyyətinə gəlirli sahələrdən biri kimi bütün zamanlarda böyük maraq olub. İnkişaf templəri və əhalinin gəlirləri artdıqca isə bu sahədə daha sivil və komfortlu xidmətlərin göstərilməsi meyilləri də sürətlənir. Naxçıvanda son illər fəaliyyətə başlayan yeni ictimai iaşə obyektlərinin sayı durmadan artır. Lakin təəssüflər olsun ki, hələ də bir sıra obyektlərdə xidmətin təşkili qaydalarına, istehlakçıların hüquqlarının müdafiəsinə yanaşma qanunvericiliyin tələbləri səviyyəsində deyil. Məhz bu səbəbdən istehlakçılardan hansısa restoran, yaxud kafe barədə şikayətlər eşitmək mümkündür.

Həmsöhbətim qeyd etdi ki, birinci növbədə, sahibkarlıq subyektləri nəzərə almalıdır ki, ictimai iaşə obyektləri zəruri məhsulları lazımi şəraitdə saxlamaq üçün soyuducu və digər zəruri avadanlıqlarla təchiz edilməli, müştərilərə yüksək səviyyədə xidmət göstərmək və rahatlığını təmin etmək üçün zəruri vasitələrə və avadanlıqlara malik olmalıdır. Xidmət zalında temperaturun və nəmliyin tənzimlənməsi üçün optimal havalandırma sistemi qurulmalıdır. İstehlakçı olaraq hər birimiz ictimai iaşə obyektinə daxil olarkən, ilk növbədə, məhz bu məsələlərə fikir verməliyik.

Növbəti mərhələ məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır və bununla əlaqədar sahibkarlıq subyektlərinin qarşısında bir sıra icrası zəruri olan tələblər qoyulub. İctimai iaşə obyektləri öz fəaliyyətlərini aid olduqları növ və dərəcələrə müvafiq olaraq mülkiyyətçi, yaxud rəhbər tərəfindən təsdiq edilmiş menyuya, yaxud malların çeşid siyahısına əsasən həyata keçirirlər. İctimai iaşə obyektlərində hazırlanan məhsulların menyu, yaxud çeşid siyahısı hər bir yemək və məhsul üzrə kalkulyasiya vərəqlərinə əsaslanaraq tərtib edilməlidir. İstifadə olunan ərzaq xammalının, hazır məhsullarının mənşəyini, keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədləri olmalıdır. Eyni zamanda istehlakçı, ona təklif olunan iaşə məhsullarının həcminin yoxlanılması hüququna malikdir və bunun üçün müvafiq şəraitin yaradılması obyekt sahibinin borcudur. Həmin tələblərə əməl edilməsinə görə obyekt sahibləri məsuliyyət daşıyırlar.

Elşən Bayramov dedi ki, müştərilərə təqdim olunan ictimai iaşə məhsulları və göstərilən xidmətlər barədə dolğun və düzgün məlumat verilməsi məqsədilə obyektdə onun mülkiyyətçisi və ya rəhbəri tərəfindən təsdiq edilmiş menyu və çeşid siyahısı olmalıdır. İstehlakçı ona təklif olunan iaşə məhsullarının əsas istehlak xassələri, keyfiyyəti, həmçinin yeməklərin hazırlanma texnologiyası barədə əlavə məlumatlar almaq istədikdə ona bu məlumatların verilməsi təmin olunmalıdır.

Müştərilərlə hesablaşma zamanı da ictimai iaşə müəssisəsi bir sıra qaydalara və tələblərə əməl etməlidir. Belə ki, ictimai iaşə obyektləri menyuda təklif olunan məhsulların qiymətləri yazılmalıdır. Müştərilərlə hesablaşma zamanı nəzarət-kassa aparatının çeki ilə yanaşı, göstərilmiş ictimai iaşə xidmətinin dəyərini (çekdəki məbləği) təsdiq edən və xidmətin tərkibinə daxil olan yemək və məhsulların adları göstərilmiş hesab kağızını təqdim etməlidir. Menyu ilə sifariş qəbzinin qiymətləri eyni olmalıdır. İstehlakçı ona təqdim edilmiş məhsulların dəyərini nağd və ya qeyri-nağd hesablaşma yolu ilə ödəyə bilər. İstehlak olunmuş məhsul müqabilində istehlakçıya kassa çeki təqdim edilir. Əgər istehlakçı xoşagəlməz hallarla qarşılaşmışdırsa, istehlakçı olaraq hüquqları pozulmuşdursa, o zaman o sifariş qəbzində göstərilən məbləği ödəmədən iaşə obyektindən ayrıla bilər. İstehlakçının həmin qəbz ilə lazımi qurumlara öz şikayətini bildirməkdə tam hüququ var.



Bilmək lazımdır ki, icraçı qarşılıqlı razılıq və şərtlər əsasında hər bir istehlakçıya xidmət göstərməyə borcludur. Xidmət şərtləri, o cümlədən qiymətləri bütün istehlakçılar üçün eyni bərabər müəyyən edilir.

Müsahibim onu da qeyd etdi ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən istehlakçını ona lazım olmayan çeşidli mal almağa və xidmət göstərilməsinə məcbur etmək qadağan edilir. Qanunun 14-cü maddəsinin 5-ci bəndində göstərilir ki, istehlakçı satıcının yaratdığı dəstdən ona lazım olan malı almaq hüququna malikdir. İstehlakçılar bu Qanunda göstərilən hüquqlarının pozulması ilə bağlı şikayət edə bilərlər. İstehlakçıların hüquqlarının pozulmasına görə vəziyyətdən asılı olaraq istehsalçı, satıcı və ya icraçı öhdəlik daşıyırlar. Dövlət bu öhdəliklərin qorunması üçün məcburi keyfiyyət, təhlükəsizlik qaydaları, digər adı ilə normativ sənədlər müəyyən edir. İstehlakçının haqlı tələbləri yerinə yetirilmədikdə və istehlakçı hüquqları pozulduğu halda vətəndaşlar birbaşa olaraq məhkəməyə üz tuta bilərlər. Bilmək lazımdır ki, məhkəmə hüquqların müdafiəsi üçün sonuncu instansiyadır. Bunun üçün müvafiq dövlət orqanı fəaliyyət göstərir. Belə ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu sahədə fəaliyyət göstərən qurumdur və istehlakçı hüquqlarının müdafiəsini həyata keçirir. Həmin orqana vətəndaşlar birbaşa olaraq müraciət edə bilər. Müraciətlər qanunvericiliklə müəyyən edilən müddətdə araşdırılır və orqanlar tərəfindən pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür. Həmçinin istehlak hüquqlarının müdafiəsi ilə bağlı irəli sürülən iddialarda iddiaçılar dövlət rüsumunu ödəməkdən azaddırlar.

Bildiyiniz kimi, Naxçıvanda fəaliyyət göstərən Peşə Məktəbində ofisiantlıq ixtisası üzrə qısamüddətli təlimlər keçirilir. Lakin nədənsə, restoran sahibləri peşəkar ofisiantlarla deyil, daha çox tələbələrlə mövsümi olaraq işləməyi üstün tuturlar. Belə olduğu halda ofisiantın göstərdiyi xidmət, təbii ki, ürəkaçan olmur. Çünki bu elə bir sahədir ki, bu işlə məşğul olanlar, əsasən, təcrübə qazandıqan sonra, necə deyərlər, öz işinin ustası olur. Maraqlıdır, restoranda xidmət göstərən ofisiantın bu ixtisas üzrə təhsil alması məcburidirmi? Elşən Bayramov sualımızı belə cavablandırdı: – Ofisiant qidalanma sektorunda qonaqlara xidmət edən personaldır. O, peşəkarlıq vərdişlərinə malik olmalı, iş üsullarını və xidmət texnikasını dərindən mənimsəməlidir. Etiket normalarını bilməli, özünü aparmaq qaydalarına riayət etməli, menyunu tam şəkildə izah etməyi, menyuya daxil olan yeməklərin inqredientlərini bilməli, qonağa ətraflı məlumat verməyi bacarmalıdır. Gigiyena qaydalarına xüsusilə diqqət etməlidir. Bu kimi qaydaları yalnız bu sahə üzrə müəyyən kurs keçmiş ofisiant bilər. İctimai iaşə obyektlərinin bu sahə üzrə ixtisaslı olub-olmamasına Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti nəzarət etmir. Bu, digər qurumların işidir. Amma onu qeyd edə bilərəm ki, Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarının təsdiq edilməsi haqqında qərar məcbur edir ki, ictimai iaşə məhsullarının istehsalı və istehlakçının təşkili, texniki normativ-hüquqi aktların məcburi tələblərinə uyğun olaraq xüsusi hazırlıq və profilaktiki tibbi müayinədən keçmiş işçilər tərəfindən həyata keçirilməlidir.

*Əziz istehlakçılar, ümidvarıq ki, ictimai iaşə obyektlərinə üz tutarkən bu yazı sizin köməyinizə çatacaq. Biz istehlakçı olaraq öz hüquqlarımızı bilsək, xoşagəlməz hallarla qarşılaşdıqda arzuolunan istirahət üçün istəklərimizi icraçıdan tələb edə bilərik. Hər kəsə mədəni zövqünü oxşayan xoş istirahətlər diləyilə...*

**Gülcamal TAHİROVA**

## Alimin ABŞ-da yüksək indeksli jurnalda əsəri nəşr olunub




Son dövrlər dünya miqyasında üzüm bitkisinin geneanalizlərinin molekulyar səviyyədə aparılmasına üstünlük verilir. Bu üsulla çox perspektivli və iqtisadi cəhətdən səmərəli sortların yaradılması ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Bioresurslar İnstitutu Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru, dosent Varis Quliyev də məşğul olur. 10 patent və müəllif şəhadətnaməsi almış Varis Quliyevin də həmmüəllif olduğu "Üzüm bitkisinin təkamülündə əlamətlərin mənşəyi və ikiqat əhliləşdirmə" adlı fundamental əsəri bu günlərdə ABŞ-da "Üzüm bitkisinin genetikası, genom analizi və seleksiyası" adlanan yüksək indeksli jurnalda dərc olunub. Əsər dünya miqyasında molekulyar genom analizi istiqamətində üzüm bitkisi üzrə tədqiqat aparan ayrı-ayrı ölkələrdən olan müəlliflərin kollektiv elmi məhsuludur. Əsərdə 40-dan çox ölkədən olan 80 həmmüəllifin tədqiqatları özünə yer alıb. Yeni nəşrdə Naxçıvan bölgəsində 25-dən çox aborigen üzüm sortlarının molekulyar genom analizlərinin nəticələri də işıqlandırılıb. Qeyd edək ki, 2022-ci ildə Türkiyədə yüksək nüfuzlu "Üzümçülük üzrə tədqiqatlar" jurnalında Varis Quliyevin həmmüəllif olduğu "Azərbaycanda bəzi üzüm sortlarının bioloji və morfoloji dəyişkənliklərinin öyrənilməsi" adlı əsəri də nəşr edilib.

Məlumat üçün bildirək ki, aqrar elmləri doktoru, dosent Varis Quliyev 40 ildən artıqdır ki, muxtar respublikada üzüm sortlarının genetikası və seleksiyası üzrə elmi-tədqiqat işləri ilə məşğul olur. Bu tədqiqatların nəticəsi kimi 1986-cı ildə "Kalxisinin təsiri ilə üzüm bitkisində biomorfoloji xüsusiyyətlərin dəyişilməsinin öyrənilməsi" mövzusunda namizədlik, 2012-ci ildə "Naxçıvan Muxtar Respublikasında üzüm genofondunun tədqiqi və seleksiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Babək rayonunun Zeynəddin kənd sakini Məmmədov Mehman Teymur oğluna məxsus torpaq sahəsinə verilmiş 30.10.2006-cı il tarixli 103013000145 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Güney Qışlaq kəndində yaşayan Behbudova Səkinə Xudan qızının adına verilmiş JN-322$^{B}$ saylı "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 220